AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MİLLİ KİTABXANASI

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 90

## (1918 – 1920)

BAKI – 2008

**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**M.F.AXUNDOV adına**
**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**




# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ -90

**(1918 – 1920)**

***BİBLİOQRAFİYA***

**BAKI – 2008**

*Tərtib edəni:* **Şəhla Nağıyeva**

*İxtisas redaktoru:* **Kərim Tahirov**

*Redaktor:* **Gülbəniz Səfərəliyeva**

*Kompyuter yığımı:* **Mehriban Cəfərova**

Azərbaycan Xalq Cümhuriyyəti - 90: (1918 – 1920): Biblioqrafiya /Tərtib edəni: Ş.Nağıyeva., İxtisas redaktoru K.Tahirov.- B., 2008.- 256 s.

© M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2008.

## TƏRTİBÇİDƏN

Azərbaycan xalqı əsrlər boyu azadlıq arzusu ilə yaşamış, milli azadlıq, istiqlal uğrunda mübarizə aparmışdır. XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatı gücləndi. Azərbaycanın demokratik qüvvələri, mütəfəkkir şəxsləri, siyasi xadimləri yurdumuzun müstəqilliyi, xalqımızın azadlığı uğrunda mübarizəyə qoşuldular. Rusiya imperiyasının dağılması Azərbaycanda müstəqil dövlət yaratmaq üçün şərait yaratdı. 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan edildi.

Həmin gün Azərbaycan xalqının tarixində əlamətdar bir hadisə oldu. Azərbaycan Respublikasının yaradılmasında və ona rəhbərlik edilməsində M.Ə.Rəsulzadənin, F.Xoyskinin, N.Yusifbəylinin, A.Səfikürdskinin, Ə.Topçubaşovun, X.Xasməmmədovun, C.Hacınskinin, S.Mehmandarovun və başqalarının çox böyük rolu olmuşdur. Azərbaycan Cümhuriyyətinin yaradılması və milli dövlət quruculuğunun bərqərar edilməsi xalqımızın suverenliyini təmin etdi, tarixi yaddaşın formalaşmasında müstəsna əhəmiyyət kəsb etdi.

AXC haqqında tərtib olunmuş bu biblioqrafik göstərici ADR-in yaranmasını, fəaliyyətini və süqutunu, onun ictimai-siyasi xadimlərinin həyat və fəaliyyətini əhatə edir.

Göstərici bu sahədə tərtib olunmuş ilk vəsaitdir. Göstərici 1918-ci ildən 2008-ci ilə qədər olan dövrü əhatə edir. Göstərici xronoloji prinsipə əsasən tərtib edilmişdir. Materiallar aşağıdakı əsas bölmələr üzrə qruplaşdırılmışdır:

I. ADR-in yaranması, fəaliyyəti və süqutu;

II. ADR-in görkəmli xadimləri haqqında;

III. ADR-in yaranması, fəaliyyəti və süqutu (rus dilində);

IV. Başqa dillərdə;

V. Köməkçi göstəricilər.

Rus dilində materialların çoxluğunu nəzərə alıb, o "Başqa dillərdə" bölməsində deyil, ayrıca bölmə kimi verilmişdir.

Göstərici tarixçilər, Azərbaycan tarixini tədqiq edən alimlər, kitabxanaçılar, biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Göstərici haqqında rəy və təkliflərini göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk. Bütün rəy və təkliflərinizi M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına (Az. 1000, Bakı şəhəri, Xaqani küçəsi, 29) göndərməyinizi xahiş edirik.

## Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında

Azərbaycan Respublkası Prezidentinin Sərəncamı

2008-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi tamam olur. Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, Xalq Cümhuriyyətinin siyasi varisi kimi onun bayrağını, gerbini, himnini qəbul etmişdir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may günü hazırda Respublika Günü kimi qeyd olunur.

Müsəlman Şərqində ilk parlament respublikası — Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dovlət təsisatlarının yaradılmasına nail olmuşdu. Milli parlamentarizmin təşəkkül tarixi isə Azərbaycan Parlamentinin 1918-ci il dekabr ayının 7-də keçirilmiş ilk iclasından başlayır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi. Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və digər görkəmli şəxsiyyətlər tərəfindən təməli qoyulmuş proseslər Azərbaycanda yeni tipli teatrın, məktəbin və mətbuatın yaranması ilə nəticələnmiş, milli özünüdərkin gerçəkləşməsinə böyük təsir göstərmişdir. Bakının neft paytaxtına çevrilməsi milli sahibkarlar təbəqəsinin formalaşması ilə yanaşı, dünyanın aparıcı universitetlərində təhsil almış ziyalılar nəslinin yetişməsinə şərait yaratmışdır. Əlimərdanbəy Topçubaşov və başqa ziyalıların siyasi proseslərə qatılması, Dumaya seçilməsi və Rusiya

müsəlmanlarının təşkilatlanmasında oynadıqları rol tariximizin unudulmaz səhifələrindəndir.

Rusiyada çar üsul-idarəsinin ləğvi, baş verən fevral və oktyabr çevrilişləri, Birinci Dünya müharibəsinin fəsadları və bir sıra digər amillər Qafqazı ayrı-ayrı siyasi qüvvələrin qarşıdurma meydanına çevirmişdi. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə göstərdiyi maraq vəziyyəti daha da gərginləşdirirdi.

İlk qərarı ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən Cümhuriyyətin yaranması çox mürəkkəb şəraitdə elan olunmuşdur. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün olduqca əzizdir. Bununla belə, bu tarixdə ürəyimizi qürur hissi ilə dolduran hadisələrlə yanaşı, ümummilli faciələrə yol açan səhifələr də vardır.

Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri Paris Sülh Konfransında 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur. Lakin ölkənin öz neftini xarici bazarlara çıxarmaqdan təcrid edilməsi nəticəsində yaranmış siyasi, iqtisadi və sosial böhran güclənirdi. Həmçinin parlament daxilində hökm sürən hərc-mərclik, Qarabağda və Zəngəzurdakı erməni silahlı dəstələri ilə qarşıdurmalar gündən-günə dərinləşirdi. Əhalinin əsas hissəsinin ağır durumu isə bolşevik təbliğatı üçün münbit zəmin yaradırdı. İrəvanın ermənilərə paytaxt kimi verilməsindən sonra İrəvan mahalından qaçqın düşmüş 150 mindən artıq soydaşımızın vəziyyəti olduqca gərgin idi. Belə bir vəziyyətdə parlamentin son

iclasında bolşevik ultimatumunun qəbul edilməsi aprel işğalı ilə nəticələndi.

Aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin bir qismini Məhəmməd Əmin Rəsulzadə kimi mühacir həyatı yaşamağa məhkum etdi, digər qismini Fətəli Xan Xoyski və Həsən bəy Ağayev kimi erməni terrorunun qurbanına çevirdi, qalanlarını da bolşevizmin amansız repressiyalarına məruz qoydu.

1920-ci il aprelin 28-də ikinci respublika Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. İki il ərzində öz müstəqilliyini qoruyub saxlamağa nail olan respublika 1922-ci ildə SSRİ-nin tərkibinə daxil olduqdan sonra öz müstəqilliyinin ancaq formal atributlarını saxlaya bilmişdi. Yalnız onu əvəz edən dördüncü respublika müstəqillik ideyasını yaşatmış və Azərbaycan bütün sərvətlərinin, o cümlədən neftinin tam sahibi kimi çıxış edə bilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı əsərlər, hətta ikicildlik ensiklopediya nəşr edilsə də, tariximizin bu mərhələsi ilə bağlı çox sayda sənədlər hələ xarici ölkələrin qapalı arxivlərində saxlanılır və öz tədqiqatçılarını gözləyir.

Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizdə milli dövlətçilik tarixində xüsusi yer tutduğunu nəzərə alaraq **qərara alıram**:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi respublikada geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının

90 illiyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə olunsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 fevral 2008-ci il

## Azərbaycan hökumətinin tərkibi

**I kabinə: 28.05.1918 – 17.06.1918.**

1. Nazirlər Şurasının sədri və Daxili İşlər naziri – F. Xoyski (bitərəf).
2. Hərbi nazir – X. Sultanov (müsavat).
3. Xarici İşlər naziri – M.H. Hacınski (müsavat).
4. Malliyyə və Xalq Maarifi naziri - N.Yusifbəyli (müsavat).
5. Ədliyyə naziri – X. Xasməmmədov (müsavat).
6. Ticarət və Sənaye naziri – M.Y. Cəfərov (bitərəf, sonra – müsavat).
7. Əkinçilik və Əmək naziri – Ə. Şeyxülislamzadə (Hümmət).
8. Yollar, Poçt və Teleqraf naziri – X. Məlikaslanov (bitərəf).
9. Dövlət müfəttişi – C. Hacınski (sosialist).

**II kabinə: 17. 06. 1918 – 07. 12. 1918.**

1. Nazirlər Şurasının sədri və Ədliyyə naziri F.Xoyski (bitərəf).
2. Xarici İşlər naziri – M. Hacınski (müsavat).
3. Xalq Maarifi və Dini Etiqad naziri – N. Yusifbəyli (müsavat).
4. Daxili İşlər naziri – B. Cavanşir (bitərəf).
5. Əkinçilik naziri – X. Sultanov (müsavat).
6. Səhiyyə və Sosial – Təminat naziri - X.Rəfibəyli (bitərəf ).
7. Yollar naziri – X. Məlikaslanov (bitərəf).
8. Ticarət və Sənaye naziri – A. Aşurov (bitərəf).
9. Malliyyə naziri – Ə. Əmircanov (bitərəf ).

10. Portfelsiz nazir – Ə. M. Topçubaşov (bitərəf).
11. Portfelsiz nazir – M. Rəfiyev (müsavat ).
12. Portfelsiz nazir – X. Xasməmmədov (müsavat).

**6.10.1918 tarixli kabinədaxili dəyişikliklərdən sonra**

1. Nazirlər Şurasının sədri – F. Xoyski (bitərəf).
2. Ticarət, Sənaye və Daxili İşlər naziri –B.Cavanşir (bitərəf).
3. Xarici İşlər naziri – Ə. M. Topçubaşov (bitərəf).
4. Malliyyə naziri – M. H. Hacınski (müsavat).
5. Xalq Maarifi naziri – H. Yusifbəyli (müsavat ).
6. Yollar naziri – X. Xasməmmədov (bitərəf).
7. Əkinçilik naziri – X. Sultanov (müsavat).
8. Xalq Səhiyyəsi naziri – X. Rəfibəyli (bitərəf).
9. Poçt - Teleqraf naziri – A. Aşurov (bitərəf).
10. Sosial- Təminat və Dini Etiqad naziri – M.Rəfiyev (müsavat).
11. Hərbi İşlər üzrə müvəkkil – İ. Ziyatxan (bitərəf).
12. Dövlət müfəttişi – Ə. Əmircanov (bitərəf).

**III kabinə: 26. 12. 1918 - 14. 03. 1919.**

1. Nazirlər Şurasının sədri və Xarici işlər naziri – F. Xoyski (bitərəf).
2. Daxili İşlər naziri – X.Xasməmmədov (müsavat).
3. Malliyyə naziri – İ.Protasov (Slavyan-Rus Cəmiyyəti).
4. Yollar naziri – X. Məlikaslanov (bitərəf).
5. Ədliyyə nazırı – T.Makinski (?) .

6. Maarif və Dini Etiqad nazırı – N.Yusifbəyli (müsavat ).
7. Poçt-Teleqraf və Əmək naziri – A.Səfikürdski (sosialist).
8. Hərbi nazir – S.Mehmandarov (bitərəf).
9. Sosial - Təminat naziri – R.Xoyski (bitərəf).
10. Xalq Səhiyyəsi naziri – Y.Gindes ( Slavyan-Rus Cəmiyyəti ).
11. Ticarət və Sənaye naziri – M.Əsədullayev (bitərəf).
12. Dövlət müfəttişi – M.H.Hacinski (16.01. 1919 ).
13. Ərzaq naziri – K.Lizqar (Slavyan-Rus Cəmiyyəti).
14. Əkiçilik naziri – X.Sultanov (müsavat).

**IV kabinə : 14. 03. 1919 – 22. 12. 1919.**

1. Nazirlər Şurasının sədri və Daxili İşlər naziri – N. Yusifbəyli (bitərəf).
2. Malliyyə naziri – Ə.Həsənov (bitərəf).
3. Ticarət və Sənaye naziri – A. Əminov (bitərəf).
4. Xarici İşlər naziri – M.Y.Cəfərov (müsavat).
5. Yollar naziri – X.Məlikaslanov (bitərəf ).
6. Poçt - Teleqraf naziri – C.Hacınski (sosialist).
7. Hərbi nazir – S.Mehmandarov (bitərəf).
8. Sosial-Təminat naziri – V.Klenevski (Slavyan-Rus Cəmiyyəti).
9. Səhiyyə naziri – A.Dastakov (?) .
10. Maarif və Dini Etiqad naziri – R.Kaplanov (əhrar).
11. Əkinçilik naziri – A.Qardaşov (əhrar) .
12. Portfelsiz nazir – X.Amaspür (daşnaksütun).
13. Dövlət müfəttişi – N.Nərimanbəyli (müsavat).
14. Ədliyyə və Əmək naziri –A. Səfikürdski (sosialist ).

15. Sonralar Daxili İşlər naziri – X.Xasməmmədov (müsavat).

**V kabinə : 24. 12. 1919 – 01. 04. 1920.**

1. Nazirlər Şurasının sədri – N.Yusifbəyli (müsavat ).
2. Xarici İşlər naziri – F.Xoyski ( bitərəf ).
3. Hərbi nazir – S.Mehmandarov ( bitərəf ).
4. Daxili İşlər naziri – M.H.Hacınski 18. 09. 02. 1920-dən sonra M. Vəkilov (birincisi əvvəl müsavat, sonra kommunist, M. Vəkilov - müsavat).
5. Ədliyyə naziri – X.Xasməmmədov (müsavat).
6. Maliyyə naziri – R.Kaplanov (əhrar).
7. Maarif və Dini Etiqad naziri – H. Şahtaxtinski (05. 03.1920-dən sonra N.Şahsurarov, hər ikisi-ittihad).
8. Əmək və Əməkçilik naziri – Ə.C.Pepinov (sosialist).
9. Yollar naziri, eyni zamanda Ticarət, Sənaye və Ərzaq üzrə müvəqqəti nazir – X. Məlikaslanov (18.02.1920-dən sonra ticarət, sənaye və ərzaq naziri – M.H.Hacınski ).
10. Poçt - Teleqraf naziri – C.Hacınski (sosialist).
11. İctimai Təminat və Səhiyyə naziri – M.Rəfiyev (müsavat).
12. Dövlət müfəttişi – H.Məmmədbəyov (ittihad).

## İstiqlal Bəyannaməsi

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.
2. Müstəqil Azərbaycan Dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.
4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.
5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.
6. Müəsisslər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

1918-ci il mayın 28-də Milli Şuranın iclasında qəbul olunmuşdur.*

***Qeyd**: Mahmudov Yaqub. Azərbaycan: Qısa dövlətçilik tarixi. - B., 2005. - S. 46.

# Xronoloji cədvəl

## (1918-1920-ci illər)

**1918, 23 fevral** – Zaqafqaziya Seyminin açılması, Gegeçkorinin başçılığı ilə Zaqafqaziya hökumətinin təşkili.

**1918, 7 mart** – Zaqafqaziya Seymi tərəfindən aqrar qanunun qəbulu.

**1918, 14-20 mart** – Zaqafqaziya Seymi ilə Türkiyə arasında Trabzon konfransının keçirilməsi.

**1918, mart-aprel** – Bolşevik-daşnak qüvvələri tərəfindən Azərbaycanlıların Soyqırımı

**1918, 22 aprel** – Zaqafqaziya Seymi tərəfindən Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi

**1918, 25 aprel** – Bakı Soveti Xalq Komissarları Şurasının təşkili.

**1918, 26 aprel** – Zaqafqaziya Seymi tərəfindən Çxengelinin başçılığı ilə yeni Zaqafqaziya hökumətinin təsdiqi

**1918, 30 aprel** – Bakı şəhər dumasının İnqilabi Müdafiə Komitəsi tərəfindən ləğvi

**1918, 1 may** – Qubanın Bakı Soveti qoşunları tərəfindən tutulması

**1918, 11may** – Batum Sülh Konfransı

**1918, 26 may** – Zaqafqaziya Seyminin son iclası

**1918, 27 may** – Azərbaycan Milli Şurasının təşkili; Azərbaycanın müstəqillik aktının qəbulu

**1918, 28 may** – Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi

**1918, 28 may** – Azərbaycanın istiqlaliyyəti haqqında Aktın (Əqdnamə) qəbul edilməsi

**1918, 28 may – 17 iyun** - F. Xoyskinin başçılığı altında I hökumət kabinetinin fəaliyyət dövrü

**1918, 4 iyun** – Azərbaycan və Osmanlı hökumətləri arasında Sülh və Dostluq müqaviləsinin imzalanması

**1918, 5 iyun** – Türk ordusunun Yelizavetpola daxil olması

**1918, 16 iyun** – Azərbaycan Cümhuriyyəti Milli Şurasının və hökumətinin Tiflisdən Gəncəyə köçməsi

**1918, 17 iyun** – Milli Şuraının buraxılması

**1918, 17 iyun-7 dekabr** – F. Xoyskinin başçılığı altında II Hökumət Kabinetinin fəaliyyət dövrü

**1918, 23 iyun** – Azərbaycanda hərbi vəziyyətin elan edilməsi

**1918, 26 iyun** – Müsəlman korpusunun Azərbaycan korpusuna çevrilməsi haqqında Azərbaycan hökumətinin qərar qəbul etməsi. Azərbaycan Milli Ordusunun yaradılması

**1918, 26 iyun** – Zaqatala Quberniyasının yaradılması

**1918, 27 iyun** – Qafqaz İslam Ordusunun Göyçay yaxınlığında Bakı Sovet qoşunları üzərindəki qələbəsi

**1918, 27 iyun** – Azərbaycan (türk) dilinin Azərbaycan Cümhuriyyətinin Dövlət Dili elan edilməsi

**1918, 10 iyul** – Qafqaz İslam Ordusunun Kürdəmir və Şamaxını azad etməsi

**1918, 11 iyul** – Azərbaycan hökumətinin ümumi səfərbərlik haqqında qərar qəbul etməsi

**1918, 25 iyul** – Bakı Soveti tərəfindən ingilislərin Bakıya dəvət edilməsi haqqında qərarın qəbulu

**1918,30 iyul** – Çar Rusiyasının istilası zamanı Yelizavetpol adlandırılmış Gəncə şəhərinin tarixi adının bərpa edilməsi

**1918, 31 iyul** – Bakı Xalq Komissarları Şurasının süqutu

**1918, 1 avqust** – Sentrokaspi Diktaturası və Fəhlə Əsgər Deputatları Sovetinin Müvəqqəti İcraiyyə Komitəsinin birgə hökumətinin təşkili

**1918, 4 avqust** – İlk ingilis qoşun dəstəsinin Bakıya gəlməsi

**1918, 28 avqust** – Azərbaycan dilinin tədris edilməsi haqqında Nazirlər Şurasının qərarı

**1918, 4 sentyabr** – İngilis qoşunlarının Bakını tərk etməsi

**1918, 15 sentyabr** – Qafqaz İslam Ordusunun Bakı şəhərini azad etməsi

**1918, 17 sentyabr** – Azərbaycan hökumətinin Bakıda fəaliyyətə başlaması

**1918, 5 oktyabr** – Azərbaycan hökumətinin neft sənayesinin dövlətsizləşdirilməsi haqqında qərarı

**1918, 18 oktyabr** – Bakı şəhərində "Türk Ocağı" cəmiyyətinin yaranması

**1918, 30 oktyabr** – Türkiyə və Antanta ölkələri arasında Mudros müqaviləsinin imzalanması

**1918, 1 noyabr** – Hərbi Nazirliyin təsis edilməsi

**1918, 9 noyabr** – Azərbaycan Cümhuriyyətinin Dövlət Bayrağı haqqında qanunun qəbul edilməsi

**1918, 16 n**oyabr – Azərbaycan Milli Şurasının bərpası; Qori seminariyasının Azərbaycan bölməsinin Qazağa köçürülməsi

**1918, 17 noyabr** – General Tomsonun başçılıq etdiyi ingilis qoşunlarının Mudros müqaviləsinə əsasən Azərbaycana daxil olması

**1918, 20 noyabr** – Azərbaycan Cümhuriyyəti Parlamenti haqqında qanunun qəbulu

**1918, 29 noyabr** – Xəzər Donanması ticarət gəmilərinin ingilis komandanlığının ixtiyarına keçməsi, "İngilis dəniz nəqliyyatı"nın yaranması

**1918, 7 dekabr** – Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışı

**1918, 26 dekabr** – F. Xoyskinin başçılığı ilə III Hökumət Kabinetinin təşkili; Gürcüstan və Azərbaycan arasında tranzit müqaviləsinin bağlanması

**1918, 28 dekabr** – Azərbaycan Cümhuriyyəti hökumətinin tanınması haqqında Bakı general-qubernatoru Tomsonun deklarasiyası

**1919, 15 yanvar** – Qarabağ general-qubernatorluğunun yaradılması; Azərbaycan Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının təşkili

**1919, 4 fevral** – Parlamentin Aqrar Komissiyasının təşkili

**1919, 25 fevral** – F.Xoyskinin III Hökumət Kabinetinin istefası

**1919, 5 aprel** – Hərbi Nazirliyin Bakıya köçürülməsi

**1919, 14 aprel** – Azərbaycan Cümhuriyyəti Parlamentinin N.Yusifbəyli başda olmaqla IV Hökumət Kabinetini təsdiq etməsi

**1919, 28 may –** Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransında ABŞ prezidenti Vilsonla görüşü

**1919, 29 may** – Cənubi Qafqaz Respublikalarının Tiflis kohfransının keçirilməsi

**1919, 31 may** – Arbitraj orqanının yaradılması haqqında hökumətin qərar qəbul etməsi

**1919, 11 iyun** – Hökumətin Dövlət Müdafiə Komitəsinin təşkili haqqında qərar qəbul etməsi; Dövlət Müdafiə Komitəsi tərəfindən Azərbaycan Cümhuriyyəti ərazisində hərbi vəziyyət elan edilməsi

**1919, 13 iyun** – Paris Sülh Konfransında Kolçakın Rusiya ərazisində ali hakimiyyətinin tanınması haqqında sənədin qəbul edilməsi; Azərbaycan, Gürcüstan, Şimali Qafqaz, Belarusiya Ukrayna, Estoniya və Latviya nümayəndələrinin buna etiraz etməsi

**1919, 13 iyun** – İngilislərə qarşı Bakıda nümayişlərin keçirilməsi

**1919, 16 iyun** – Azərbaycan-Gürcüstan arasında hərbi müdafiə aktının imzalanması

**1919, 27 iyun** – Ərazi bütövlüyünü birgə qorumaq haqqında Azərbaycan-Gürcüstan müqaviləsini Parlamentin təsdiq etməsi

**1919, 6 avqust** – General Tomsonun Xəzər Hərbi Donanmasını Denikinin könüllülər ordusuna vermək barədə sərəncam imzalaması

**1919, 11 avqust** – Cümhuriyyət Parlamentinin Azərbaycan vətəndaşlığı haqqında qanunu qəbul etməsi

**1919, 24 avqust** – İngilislərin Bakını tərk etməyə başlamaları

**1919, 24 avqust –** Azərbaycan Dövlət Bankının yaradılması haqqında qanun qəbul edilməsi

**1919, 1 sentyabr –** Bakı Dövlət Universitetinin açılması haqqında qanun qəbul edilməsi

**1919, 13 sentyabr** – Baş nazir N.Yusifbəylinin IV Hökumətin Sədri vəzifəsindən istefası

**1919, 25 oktyabr** – Azərbaycan Dövlət Bankının açılışı

**1919, 23 noyabr** – Tiflisdə Azərbaycan və Ermənistan tərəfləri arasında baş verən bütün münaqişələrə son qoyulması və sərhəd məsələsinin sülh yolu ilə həll edilməsini nəzərdə tutan müqavilənin imzalanması

**1919, 2-11 dekabr** – Türk Ədəmi-Mərkəziyyət Müsavat partiyasının II qurultayı

**1919, 22 dekabr** – Parlamentin N.Yusifbəylinin başçılığı ilə V Hökumət Kabiheti tərkibini təsdiq etməsi

**1920, 2 yanvar** – Sovet Rusiyasının Denikinə qarşı birgə mübarizə aparmaq təklifi haqqında Azərbaycan Cümhuriyyətinə birinci dəfə nota verməsi

**1920, 11 yanvar** – Azərbaycanın müstəqilliyini Paris Sülh Konfransında Antanta Ali Şurasının de-fakto tanıması

**1920, 14 yanvar** – F.Xoyskinin Rusiyanın Denikinlə mübarizəsinin onun daxili işi olması haqqında Çiçerinə cavab notası verməsi

**1920, yanvar** – Paris Sülh Konfransının Azərbaycan Cümhuriyyətinə kömək göstərilməsi haqqında qərar qəbul etməsi

**1920, 23 yanvar** – Q.Çişerinin Azərbaycan hökumətini Denikinə qarşı mübarizəsindən imtina etməkdə ittiham edən ikinci notasının verilməsi

**1920, 18 fevral** – M.Hacınskinin Daxili İşlər naziri vəzifəsindən istefa verməsi

**1920, 20 mart** – Azərbaycan-İran müqaviləsinin bağlanması; Bu müqaviləyə əsasən Azərbaycanın İran tərəfindən de-yure tanınması

**1920, 23 mart** – Əkin və Əkinçilik naziri Ə.C.Pepinovun istefa verməsi

**1920, 23 mart** – Azərbaycan və Gürcüstan arasında ticarət müqaviləsinin imzalanması

**1920, 9 aprel –** Poçt və Teleqraf naziri sosialist C.Hacınskinin istefa verməsi

**1920, 15 aprel** – F.Xoyskinin Q.Çiçerinə Rusiya qoşun hissələrinin Azərbaycan sərhədlərində cəmləşməsi ilə bağlı Azərbaycan dövlətinin narahatlığını ifadə edən notası

**1920, 27 aprel** – XI Qızıl Ordunun Azərbaycan Xalq Cumhuriyyəti ərazisinə daxil olması

**1920, 28 aprel** – Azərbaycan Cümhuriyyəti Parlamenti tərəfindən Azərbaycan İnqilab Komitəsinin hakimiyyəti ona təhvil verməsi haqqında ultimatumunu qəbul etməsi.*

*__Qeyd__: Azərbaycan tarixi. Yeddi cilddə. V cild.- B., 2001.

# I FƏSİL

# Azərbaycan Demokratik Respublikasının yaranması, fəaliyyəti və süqutu

## KİTABLAR

### 1918

**1. Topçubaşov, Ə**. Azərbaycanın təşkili.- İstanbul, 1918.- 46 s. (Ərəb əlifbasında)

Milli hərəkat tariximizin Cümhuriyyətə qədərki mərhələsi, Cümhuriyyətin yaranması tarixi verilmişdir.

### 1926

**2. Şıxlinski, Ə.** Ruscadan türkcəyə qısa döyüş sözlüyü: (təlimnamələri və elmi hərbi kitabları ruscadan türkcəyə çevirmək üçün yardımlıq).- B., 1926.- 268 s. (Ərəb əlifbasında).

### 1928

**3. Rathauzer,** Y. Bakıda inqilab və vətəndaş müharibəsi: (1917-1918-ci illər) /Tərcümə edəni Xəlil İbrahim.- B.: Azərnəşr, 1928.- 124 s.

Kitabda 1917-1918-ci illərdə milli şüurun oyanışı, ölkədə ikihakimiyyətlilik, mart qırğınları, müsavat firqəsinin mübarizəsi, ingilislərin Bakıya gəlişi, bolşeviklərin məğlubiyyətinin səbəbləri verilmişdir.

## 1929

**4. Rathauzer, Y.** Şura Azərbaycanı uğrunda mübarizə: Aprel inqilabının tarixinə dair /Çevirəni N.Ə. Axundov.- B.: Azərnəşr, 1929.- 116 s.

Kitabda Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və bolşevizmin qələbəsi verilmişdir.

## 1944

**5. Şıxlinski, Ə.** Xatirələrim /Müqəddimə; Tərtib. ed. Y.Barsukov.- B., 1944.- 210 s.

Kitabda hərb tarixinin görkəmli simalarından olan Şıxlinskinin maraqlı və mənalı xidmət yoluna bir daha nəzər salınır.

## 1950

**6. İbrahimov, Z.** İngilis-Amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi: (1918-1920-ci illər) /Red. Teymurov H.- B.: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı, 1950. - 114 s.

Kitabda ingilis imperialistlərinə qarşı xalqın mübarizəsi verilmişdir.

## 1971

**7. Əzimov, H.** Azərbaycan qəzalarında sovetlər: (1917-1918-ci illər).- B.: Elm, 1971.- 188 s.

Kitab dövrün tələbinə uyğun yazılsa da, müəllif 1917-1918-ci illərdə ölkədə ikihakimiyyətliliyi, milli-azadlıq hərəkatını, müsavatın fəaliyyətini, türk qoşunlarının Bakıya gəlişini vermişdir.

## 1978

**8. Əzimov, H.** İnqilab əsgərləri: Azərbaycanda əsğər təşkilatları və əsğərlərin inqilabi hərəkatı: (1917-1918).- B.: Azərnəşr, 1978.- 104 s.

Kitabdakı faktlar göstərir ki, sovetlərin əksinqilabçı xırda burjuaziya adlandırdığı müsavatçıları milli dövlət və ordu quruculuğunda xalq dəstəkləmiş, Türkiyə qoşunları işğalçı deyil, Azərbaycana dostluq yardımı göstərmiş, ikihakimiyyətlilik dövründə Bakı Kommunası süqut etmiş, Azərbaycanda AXC-i qələbə çalmışdır.

## 1984

**9. Şıxlinski, Ə.** Xatirələrim. /Müqəddimə Y. Barkovundur; Qeydlər və izahlar Ş. Nəzərlinindir.- B.: Azərnəşr, 1984.- 220 s.

Kitabda hərb tarixinin görkəmli simalarından olan Şıxlinskinin keçmiş olduğu maraqlı və mənalı xidmət yoluna bir daha nəzər salınır.

## 1989

**10. Bakı Dövlət Darülfununun** təsisi: (Sənədlər toplusu) /Tərtib ed. və ön sözün müəllifi S. İbrahimov.- B.: Azərbaycan Universitetinin nəşriyyatı, 1989.- 88 s.

ADU-nun 70 illiyi münasibətilə nəşr olunan bu topluya Universitetin yaradılmasına aid ilkin rəsmi sənədlər daxil olmaqla yanaşı, kitaba yazılmış ön sözdə dövrün ictimai-siyasi mənzərəsi, xalqın maariflənməsi yolunda fəal iştirak edən ziyalıların və ictimai xadimlərin, həmçinin bəzi mətbuat orqanlarının fəaliyyəti yığcam şəkildə şərh olunur.

## 1990

**11. Azərbaycan Demokratik Respublikası:** Azərbaycan hökuməti: (1918–1920) /Tərtib ed. B.Allahverdiyev, Ş.Mehdiyev; Red. Hidayət.- B.: Gənclik, 1990.- 96 s.

Kitabda təqdim olunan məqalələrdə Azərbaycan Demokratik Respublikasının (1918-1920) təməlini qoyanlar, Azərbaycan Parlamenti və onun işi haqqında qısa məlumat verilir.

**12. Nəsibzadə, N.** Azərbaycan Demokratik Respublikası: Məqalələr və sənədlər /Red. Aydın Hümbətoğlu.- B.: Elm, 1990.- 112 s.

Təqdim edilən bu məqalələr və sənədlər toplusu Azərbaycan Demokratik Respublikası mövzusunun obyektiv araşdırmaları sahəsində ilk cəhddir.

**13. Rəsulzadə, M.** Azərbaycan Cümhuriyyəti.- B.: Elm, 1990.- 113 (1) s.

Kitabda tariximizin ağ səhifələri (1918-1920-ci illər) dövrün ictimai-siyasi hadisələri fonunda işıqlandırılmış, Azərbaycan xalqının ADR-dən əvvəlki və sonrakı taleyi yığcam şəkildə əks etdirilmişdir.

## 1991

**14. Hacıyev, H.** İstiqlalın əzablı yolu: Azərbaycan Demokratik Respublikası tarixinin bəzi səhifələri.- B.: Azərbaycan Jurnalistlər İttifaqı, 1991.- 32 s.

Kitabda 90 illik çar əsarətindən sonra bütün müsəlman Şərqində ilk Demokratik Respublika olan Azərbaycanın 23 aylıq istiqlal ömrünün süqutuna daxili faktların deyil, məhz xarici müdaxilənin səbəb olması sübut edilir.

**15. Məmmədli, Ş**. Parçalanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticələri /Red. Firidun Ağazadə.- B.: Azərnəşr, 1991.- 66 s.

**16. Rəsulzadə, M.** Əsrimizin Siyavuşu; Çağdaş Azərbaycan ədəbiyyatı; Çağdaş Azərbaycan tarixi.- B.: Gənclik, 1991.- 112 s.

M.Ə.Rəsulzadənin bu əsərləri Azərbaycan Demokratik Respublikasının tarixinə, həmin dövrün ətraflı təhlilinə və XX əsrin əvvəllərindən 50-ci illərə qədər Azərbaycanın siyasi, iqtisadi, mədəni vəziyyətindən bəhs edir.

**17. Rəsulzadə, M.** Stalinlə ixtilal xatirələri /Red. Ziya Bünyadov.- B.: Elm, 1991.- 80 (4) s.

Kitabça M.Ə.Rəsulzadənin 1954-cü ildə Türkiyədə çap etdirdiyi məqalələrdən ibarətdir.

**18. Rüstəmbəyli, M**. Çarpışan qüvvələr.- B.: Maarif, 1991.- 188 s.

İlk mənbələrə əsaslanan bu kitabda Quba qəzasında bolşeviklərin (1917-1921) yenicə yaradılmış Azərbaycan Demokratik Respublikasına qarşı mübarizəsi verilir.

## 1992

**19. Azərbaycan Demokratik respublikası:** Tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat [Məqalələr toplusu] /Tərtib ed. və elmi red. Vilayət Quliyev.- B.: Azərnəşr, 1992.- 191 s.

**20. Azərbaycan Demokratik Respublikasının** rəmzləri: (1918-1920): Albom /Tərtib ed. X. Əliyev.- B.: İşıq, 1992. - 52 s. - Azərbaycan və rus dilində.

Kitabda ilk müstəqil respublika olan ADR-in (1918-1920) fəaliyyətindən, onun dövlət gerbi, bayrağı, orden, medal və fərqlənmə nişanlarının təsis edilməsi üçün keçirilən müsabiqədən nadir nümunələr verilmişdir.

**21. Azərbaycan tarixi problemlərinin** cavan tədqiqatçılarının ikinci respublika elmi konfransının məruzələri: 27-28 mart. /Red. heyəti Əliyev və b. Azərbaycan tarixi problemləri üzrə məruzələr məcmuəsi.- B.: Azərbaycan Dövlət İqtisad İnsitututunun mətbəəsi, 1992.- 345 (1) s.

Konfrans materiallarında Azərbaycan tarixinin digər dövrləri ilə yanaşı, ADR-in də problemləri məruzəçi alimlərin çıxışlarında öz əksini tapmışdır.

**22. Həşimova, A.** Azərbaycan Demokratik Cümhuriyyətinin siyasi fəaliyyəti haqqında (XX əsrin birinci yarısında Azərbaycan mühacirəti 30-cu illərin sonlarına qədər).- B.: Bilik, 1992.- 168 s.

Kitabda ADR-in yaranması, süqutu və Sovet Rusiyasının Azərbaycanı işğal edəndən sonra ölkədə sosial-siyasi vəziyyət, müsavatın mühacirət həyatı verilmişdir.

**23. Hüseyn, B.** Azərbaycan istiqlal mübarizəsi tarixi /Türkcədən çevirəni Elşən Həsənli; Red. Məlahət Əsədova.- B.: Azərnəşr, 1992.- 276 (4) s.

Kitab ilk dəfə 1975-ci ildə İstanbulda türk dilində nəşr olunmuşdur. Əsərdə Azərbaycanın Rusiya tərəfindən işğalı, yeni yaranan dövlətin problemləri, ermənilərin və bolşeviklərin törətdikləri qırğın, türklərin hərbi yardımı öz əksini tapmışdır. Kitabda həmçinin Azərbaycanın mühacirətdə olan ziyalıları haqqında da geniş məlumat vardır.

**24. Məmmədzadə, M.**. Milli Azərbaycan hərəkatı /Türkcədən azərbaycancaya uyğunlaşdıran Ramiz Əsgər; Red. Hacı Hacıyev.- B.: “Nicat”, 1992.- 246 (1) s.

ADR-in qurucularından olan Mirzə Bala Məmmədzadə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Türkiyəyə mühacirət etmiş, orada yazdığı bu kitabda xalqımızın XX əsrin əvvəllərindən başlayaraq rus

imperializminə qarşı milli istiqlal uğrunda apardığı mübarizəni göstərmişdir.

**25. Nəcəfov, B.** Azərbaycan Demokratik Respublikası: Daxili və xarici siyasəti /Elmi red. tarix elmləri doktoru S.N. Qarayev. - B., 1992.- 77 s.

**26. Rəsulzadə M.** Əsərləri /Toplayanı, tərt. edəni prof. Ş.Hüseynov.- B.: Azərnəşr, 1992.- C. 1: (1903 - 1909).- 469 (3) s.

Kitaba Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri, görkəmli ictimai-siyasi və dövlət xadimi M.Ə.Rəsulzadənin 1903-1909-cu illərdə "Şərqi-Rus", "Hümmət", "İrşad", "Tərəqqi", "Füyuzat" və s. qəzet və jurnallarda çıxan 280-a yaxın yazısı daxil edilmişdir.

## 1993

**27. Cəfərov, N.** Milli-ictimai fikir tariximizdən: 14 fevral 1917 /Rəyçi t.e.n. N.Nəsibzadə; Red. Sədaqət Cabbarova.- B.: Azərnəşr, 1993.- 78 s.

Kitabda o dövrün bir çox görkəmli şəxsiyyətlərinin ictimai-siyasi görüşləri, 1914-1917-ci illərdə Azərbaycan ictimai fikrində hökm sürən ayrı-ayrı cərəyanlar araşdırılır.

**28. Çəmənzəminli, Y.** Xarici siyasətimiz /Tərtib. və ön söz Tofiq Hüseynoğlu. - B.: Azərnəşr, 1993.- 50 (2) s.

**29. Həsənov, C.** Azərbaycan beynəlxalq münasibətlər sistemində: (1918-1920-ci illər). /Elmi red. tar. elm. dok. Süleyman Əliyarov; Red.Əsədova Məlahət.- B.: Azərnəşr, 1993.- 61 (3) s.

Kitab ADR-in beynəlxalq münasibətlər sisteminə daxil olması uğrunda mübarizəsinə həsr edilmişdir.

**30. Məmmədzadə, M**. Ermənilər və İran /Əski əlifbadan çevirəni, ön söz və lüğətin müəllifi Ataxan Paşayev; Red. Məlahət Əsədova.- B.: Azərnəşr, 1993.- 40 s.

Kitabda 1920-ci ildən sonra Ermənistandan İrana qaçmış daşnaq tör-töküntülərin İranı erməni milli hərəkatının mərkəzinə çevirmələri, türk əhalisini kütləvi surətdə qırmaları və s. verilmişdir.

**31. Ziyadxanov, A.** Azərbaycan /Red. Vasif Quliyev.- B.: Azərbaycan, 1993.- 175 (1) s.

Müəllif Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat verərək, onun müstəqilliyə qədərki tarixinin dolğun səciyyəsini vermişdir.

## 1994

**32. Çəmənzəminli, Y.**. Müstəqilliyimizi istəyiriksə... /Tərtib. ed. Alxan Bayramoğlu.- B.: Gənclik, 1994.-71 (1) s.

Müəllifin kitaba daxil edilmiş oktyabr inqilabından əvvəl dərc olunmuş məqalələrində müxtəlif erməni diasporunun və rus bolşevizminin türk xalqlarına qarşı təcavüzlərindən danışılır.

**33. Məmmədzadə, M.** Azərbaycanın diplomatik mübarizəsi: Milli hərəkatı, 27 aprel işğalı və Müsavat.- B., 1994.- 19 s.

Kitabda Azərbaycan Demokratik Respublikasının süqutundan sonra xaricə mühacirət etmiş müsavatçıların istilaya qarşı mübarizələri haqqında məlumat verilir.

**34. Orucov, N.** 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasında əmək hüququ münasibətlərinin nizama salınması /Elmi red. İ. İsmayılov.- B., 1994.- 103 (1) s.

Kitabda fəhlə və qulluqçuların əmək hüququ məsələlərinin hüquqi təhlili verilmişdir.

**35. Orucov, N.** İrəvan, Naxçıvan və Zəngəzur soyqırımı: (1918-1920-ci illərdə erməni silahlı qüvvələrinin Azərbay-can türklərinə qarşı etdikləri vəhşiliklər haqqında) /Rəyçilər fəl.elm. dok., prof. F.Ramazanov, fəl. elm. nam.,

dos. Ə.Tağıyev.- B.: Azərbaycan Respublkası Ədliyyə Nazirliyinin mətbəəsi, 1994.- 48 s.

Kitabda "Böyük Ermənistan" yaratmaq xülyası ilə türk mənşəli əhaliyə qarşı ermənilərin gizli və açıq soyqırımı siyasəti haqqında məlumat verilmişdir.

**36. Rəsulzadə, M.** Bolşeviklərin Şərq siyasəti /Hazırlayan Asif Rüstəmli.- B.: Sabah, 1994.- 134 s.

Kitabda 20-ci illərin ortalarında bolşeviklərin daxili və xarici siyasətindən, milli məsələyə münasibətindən söhbət açılır.

## 1995

**37. Həmidova, İ.** Azərbaycan Demokratik Respublikasının milli siyasətinin nəzəri problemləri /Elmi red. fəlsəfə elmləri dok. Şükürov Ağayar.- B.,1995.- 101(1) s.

Kitabda Azərbaycan Demokratik Respublikasının milli dövlət quruculuğu prinsiplərini tətbiq etməsi cəhdləri, iqtisadi müstəqillik uğrunda mübarizənin çətinliyi verilmişdir.

**38. Məhərrəm, N.** Daşnaksutyun və Azərbaycanın taleyi /Red. Şarvan Ağayev.- B.: Azərbaycan, 1995.- 95 s.

Kitabda erməni "Daşnaksutyun" partiyasının illər boyu apardığı boş və mənasız siyasətin "dənizdən-dənizə" cəfəng ideyası, bütün türk dünyasına qarşı şovinist təbliğatı, ermənilərin murdar siyasəti işıqlandırılır.

## 1996

**39. Hacıyev, H.** İstiqlalın əzablı yolu. Azərbaycan Demokratik Respublikası tarixinin bəzi səhifələri.- B.: Boz oğuz, Nicat, 1996.- 165 s.

Kitaba daxil olan publisistik məqalələrdə Azərbaycan Demokratik Respublikasının yaranma tarixindən,

fəaliyyətindən, xalqımızın istiqlal uğrunda mübarizəsindən, dövrün xadimlərinin mücadiləsindən bəhs olunur.

**40. İbrahimov, X.** Azərbaycan siyasi mühacirəti: (1920-1991) /Elmi red. Seyfəddin Qəndilov.- B.: Elm, 1996.- 304 (3) s. (Azərbaycan tarixi ser.:2)

Monoqrafiyada 1920-ci il 27 aprel istilasından sonra Azərbaycan Demokratik Respublikasının ictimai-siyasi xadimlərinin xaricdəki mühacirət həyatından bəhs olunur.

**41. Məmmədov, X.** Azərbaycan Milli hərəkatı: (1875-1918-ci illər) /Elmi red. Seyfəddin Qəndilov.- B.: Sabah, 1996.- 174 (2) s.

Monoqrafiyada XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan milli hərəkatının sosial-iqtisadi və siyasi təməli, maarifçilik hərəkatı və milli-mədəni inkşaf, 1-ci rus inqilabı və Azərbaycan milli-demokratik fikri, erməni-Azərbaycan münaqişəsi (1905-1906) və onun milli hərəkatın inkişafına təsiri, "Müsavat" partiyasının yaranması, 1918-ci ilin mart faciəsi, Azərbaycan milli hərəkatı tarixinin ilkin oyanış mərhələsindən müstəqil dövlət quruculuğuna qədərki dövrləri öz əksini tapmışdır.

**42. Mir Yaqub (Mehdizadə).** Qafqazın problemləri /Red.Vasif Quliyev; Fransızcadan tərcümə ed. Əziz Gözəlsoy.- B.: Azərbaycan, 1996.- 103 (1) s.

Kitabda Qafqazın Rusiya tərəfindən işğalı, Şimali Qafqazda milli hərəkat, erməni məsələsi, Milli respublikaların yaranması, Qafqaz respublikalarının müstəqilliyinin tanınması haqqında məlumat verilir.

**43. Musayev, İ.** Azərbaycanın Naxşıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti: (1917-1921-ci illər) /El.red. A.Hacıyeva; Rəy. pr. C.Həsənov.- B.: BDU, 1996.- 328 s.

Monoqrafiyada ermənilərin ərazi iddiaları, Türkiyənin mahallara siyasi-hərbi yardımı, Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi (bağışlanması) prosesi verilmişdir.

**44. Nəsibzadə, N.** Azərbaycanın xarici siyasəti (1918-1920) /Rəyçilər D. Qüdrətov və b.- B.: Ay-Ulduz, 1996.- 302 (2) s.

Monoqrafiyada ADR-in xarici siyasətinin əsas prinsipləri verilmişdir.

**1997**

**45. Dəmirov, M.** Azərbaycan prokurorluğu: Tarix və müasirlik /Rəyçi hüq. elmləri dok., prof. Ç.H.Mövsümov; Azərbaycan Respublikasının Baş Prokuroru, hüquq elmləri nam. E.Həsənov.- B.: Azərnəşr, 1997.- 171(21) s.

Kitabda ADR-in prokurorluq-istintaq orqanlarının təşkılı və strukturu, Azərbaycan prokurorluğunun rəhbərləri haqqında məlumat verilmişdir.

**46. Nəsrəddin Tusi adına** Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Şamaxı filialının və Azərbaycan tarix qurumunun Azərbaycan Cümhuriyyətinin yaranmasının 79-cu ildönümünə həsr olunmuş birgə elmi konfransın materialları. /Elmi red. filologiya elmləri dok., prof. Vaqif Arzumanlı; Ön sözün müəllifi Kamil Nərimanoğlu.- B.: Elm, 1997.- 131 (1) s.

Konfrans 1997-ci il 31may 1 iyunda Şamaxı şəhərində keçirilmiş, konfrans materialları Azərbaycan tarixinin müxtəlif dövrlərini əhatə etmişdir.

**47. Rəsulzadə M.** Mühafizəkar və ya sosialist-mühafizəkar partiyaların tənqidi /Farscadan tərc. edəni fil. elm. dok., prof. Səqəfi (Hatəmi).- B.: Diplomat, 1997.- 36 (4) s.

Kitabda sosialist partiyaların qayə və məqsədləri, mühafizəkarların elmi-nəzəri baxışları, xalqın sosial-ədalət istəyi və arzusuna qarşı cevrilmiş meyl və hərəkətlərin tənqidi M. Ə.Rəsulzadənin 1909-1911-ci illər İran dövrü fəaliyyəti verilmişdir.

## 1998

**48. Azərbaycan Cümhuriyyəti (1918 -1920)** /Red. heyəti F. Maqsudov, İ. Əliyev və b.- B.: Elm, 1998.- 336 s.

Kitabda XX əsr Azərbaycan milli hərəkatının təşəkkülünün əsas mərhələləri, gənc Azərbaycan Cümhuriyyətinin müxtəlif sahələrdə apardığı fəaliyyəti, süqutunun səbəbləri, tarixi əhəmiyyəti elmi şəkildə araşdırılmışdır.

**49. Azərbaycan Xalq Cümhuriyyəti** (1918-1920): (1998-ci il mayın 12-13-də Azərbaycan Dövlət Dillər İnstitutunda Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr edilmiş elmi-nəzəri konfransın materialları) /Elmi red. fəlsəfə el. dok., professor Quliyev Qorxmaz, tarix el. dok., professor Məmmədli Mahal.- B.: Gənclik, 1998.- 73 s.

**50. Azərbaycan Xalq Cümhuriyyəti** (1918-1920): Parlament (Stenoqrafik hesabatlar.) /Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üzrə Dövlət Komissiyası, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsi: 2 clddə.- B.: Azərbaycan, 1998.- C. I.- 976 s; C. II.-991(1) s.

**51. Azərbaycan Xalq Cümhuriyyəti** (Ədəbiyyat, dil, mədəniyyət quruculuğu) /Məs. redaktor Yaşar Qarayev.- B.: Elm, 1998. - 298 (1) s.

Kitabda Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat, dil, mədəniyyət quruculuğu məsələləri ilk dəfə olaraq sistemli elmi-monoqrafik tədqiq edilir.

**52. Azərbaycan Xalq Cümhuriyyəti** 80: Gənc tədqiqatcıların məqalələr toplusu /Baş red. Y.M.Mahmudov.- B.: Bakı Universiteti nəşriyyatı, 1998.- 158 (2) s.

Kitab Azərbaycan Xalq Cümhuriyyətinin 80-illiyi münasibəti ilə tərtib olunmuş, məqalələrdə Azərbaycan Xalq

Cümhuriyyət dövrünün tarixşünaslığı elmi faktlarla, sənədlərlə şərh olunur.

**53. Azərbaycan Xalq Cümhuriyyətinin** milli siyasəti /Tərtib ed. və elmi red. Vaqif Arzumanlı.- B.: Qartal, 1998.- 200 s.

ADR-in 80 illiyi münasibətilə hazırlanmış kitaba əsasən Cümhuriyyətin milli siyasətini, dövlət quruculuğu məsələlərini, ilk demokratik dövlət qurumunun ictimai-siyasi fəaliyyətinin bir sıra maraqlı səhifələrini əhatə edən araşdırmalar daxil edilmişdir.

**54. Azərbaycan tarixinin parlaq** səhifələri. (Azərbaycan Xalq Cümhuriyyətinin 80-illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı).-B.: Azərbaycan, 1998.- 63 (1) s.

Kitabda Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin Sərəncamı və "Bügünkü müstəqil dövlətimiz Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisidir" adlı yubiley nitqi verilmişdir.

**55. Əliyarlı, İ., Behbudov, T.** Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər) /Elmi red. tarix elm. nam. Ataxan Paşayev.- B.: Qismət, 1998.- 160 s.

Kitabda ilkin polis orqanlarının yaranması, inkişafı, tarixi rolu və əhəmiyyətindən bəhs olunur. Görkəmli generallarımız və şəxsiyyətlərimiz haqqında məlumatlar da verilir.

**56. Köcərli, T.** İstiqlal və suverenlik /Red. Nahid Hacızadə.- B.: Diplomat, 1998. - 41(1) s.

Kitabda Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlərlə münasibətlərində Azərbaycanın ardıcıl və prinsipial mövqeyi əks olunmuşdur.

**57. Qasımov, C.** Repressiyadan deportasiyaya doğru /Elmi red. və ön sözün müəl. Yaşar Qarayev.- B.: Mütərcim, 1998.- 292 s.

Müəllif 1905-1907, 1918-1920, 1948-1953, 1992-ci illərdə ermənilərin azərbaycanlılara qarşı repressiya və soyqırımı siyasətini göstərməyə çalışmışdır.

**58. Müstəqil Azərbaycan 80** il tarix səhnəsində (Sənədlər, məqalələr toplusu) /Tərtib edən Qalib Qurban İbrahimoğıu.- B.: "Vətən", 1998.- 215 s.

Kitabda ilk Demokratik Azərbaycan Respublikasının elan edilməsi, xarici və daxili siyasəti verilmişdir.

**59. Nəsrəddin Tusi adına** Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Şamaxı filialının II ənənəvi elmi konfransının materialları: (Konfrans Azərbaycan Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş və 1998-ci ilin mayın 23-də Şamaxı şəhərində keçirilmişdir).- B.: Elm, 1998.- 151 (1) s.

Konfrans materiallarında Azərbaycan Xalq Cümhuriyyətinə qarşı erməni terrorunun tarixi, 1920-ci ildə Azərbaycan istiqlalının itirilməsinin bəzi səbəbləri, Azərbaycan Demokratik Respublikasının mövzusunun tədrisi verilmişdir.

**60. Rəsulzadə M.** Azərbaycan davası.- B.: Ay-Ulduz, 1998.- 64 s.

Kitabda Rəsulzadənin mühacirətdəki əsərləri; Azərbaycan davası; Milli Azərbaycan hərəkatının xarakteri; Azərbaycan dövlətinin böyük dövlətlər tərəfindən tanınması; "Amerikanın səsi" radiosu ilə Azərbaycan xalqına müraciətləri və s. verilmişdir.

**61. Seyidzadə, D.** Azərbaycan XX əsrin əvvəllərində: Müstəqilliyə aparan yollar.- B.: Azərb. Res. Kitab cəm., 1998.- 253 s.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrünü tədqiq edən bu kitabda Azərbaycanda cərəyan edən ictimai-

siyasi proseslərin geniş mənzərəsi öz əksini tapmış, mükəmməl təhlil olunmuşdur.

**62. Süleymanov, M.** Azərbaycan ordusu (1918-1920). /Elmi red. tarix elmləri dok., prof. Pərvin Darabadi.- B.: Hərbi nəşriyyat, 1998.- 487 (1) s.

Kitab Cümhuriyyət ordusunun formalaşmasına, respublikanın ərazi bütövlüyü uğrunda yorulmaz mübarizəsinə həsr olunmuşdur.

**63. Topçubaşov, Ə.** Paris məktubları: Azərbaycan Xalq Cümhuriyyəti Sülh nümayəndə heyəti sədrinin Azərbaycan hökumətinə məlumatları (mart 1919-noyabr 1919) /Tərtib və tərc.V. Quliyev.- B.: Azərnəşr, 1998.- 118 (2) s.

Kitabda Əlimərdan bəy Topçubaşovun Azərbaycan Demokratik Respublikası hökumətinə ünvanlanmış rəsmi məlumatları toplanmışdır.

**64. Vəkilov, R.** Azərbaycan Respublikasının yaranma tarixi /Red. Ç. Quliyev.- B.: Elm, 1998.- 68 s.

1918-1920-ci illərin fəal iştirakçılarından biri olmuş müəllif, 1916-cı ilin sonlarından 1919-cu ilin dekabrına qədər Rusiya və Zaqafqaziyadakı hadisələr fonunda Azərbaycan Respublikasının yaranma və formalaşma tarixini qısa şəkildə şərh etmişdir.

## 1999

**65. Əbilov, Hacı Azər**. Qafqaz İslam Ordusu Neftçalada (1918-ci il).- B.: Yurd, 1999.- 43 s.

Kitabda 1918-ci ildə Azərbaycanın xilası üçün gələn türk qoşunlarının Neftçaladakı döyüşlərindən və 11 türk əsgərinin şəhid olmasından bəhs olunur.

**66. Qasımov, C.** Yaddaşın bərpası [AXC-nin və onun təhlükəsizlik orqanlarının yaradılması və Azərbaycanın zorla bolşevikləşdirilməsi və ona qarşı

mübarizə haqqında] /Elmi red. Yaşar Qarayev.- B.: Mütərcim, 1999.- 256 s.

**67. Nəzirli, Ş.** Arxivlərin sirri açılır /Red. Rəşid Faxralı; Rəyçi polkovnik Çingiz Məmmədov.- B.: Elm, 1999.- 414 s.

Kitabda xalqımızın hərb tarixindən səhifələr, sərkərdə və generallarımızın – S.Mehmandarovun, Ə.Şıxlinskinin, Ş.Əsədullayevin döyüş və ömür yolları verilir.

**68. Osmanlı, H.** Şimal sərhədləri və Bakı rayonunun müdafiəsi tarixində: (1918-1920-ci illər) /Elmi red. Əməkdar elm xadimi Seyfəddin Qəndilov.- B.: "Aytac", 1999.- 123 (4) s.

Kitabda Azərbaycan hökumətinin ilkin hərbi-siyasi addımlarından, milli-hərbi hissələrin Şimal sərhədlərini, Bakı rayonunun müdafiəsi, bolşevik təhlükəsi və hücumu ilə əlaqədar həyata keçirildiyi tədbirlərdən söz açılır.

**69. Süleymanov, M.** Nuru Paşa: (Sənədli oçerklər) /Red. Rəşid Faxralı.- B.: Hərbi nəşriyyat, 1999.- 142 (2)s.

Kitabda XX əsrin əvvəllərində Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının zirvəsi kimi turk qoşun hissələrinin Azərbaycana yardımından və burada Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun təşkilindən bəhs olunur.

**70. Süleymanova, S.** Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəlləri.) /Elmi red. Əməkdar elm xadimi Seyfəddin Qəndilov; Rəyçi tarix elmləri doktoru İ.M.Musayev.- B.: Azərb. Döv. Kitab Palatası, 1999.-419 (3) s.

Kitabda XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi hərəkatın yaranması və inkişafı, onun xüsusiyyətləri, islamçılıq, türkçülük, liberalizm, sosializm cərəyanları, milli azadlıq hərəkatı və milli partiyaların fəaliyyəti əks edilir.

**71. Şüküroğlu, L.** Azərbaycanın sərhəd mühafizəsi tarixindən /Red. Fuad İsgəndərov; Məsləhətçi və ön sözün müəllifi Abbasəli Novruzov.- B.: Şirvannəşr, 1999.- 95 (1) s.

Kitabda 1918-1920-ci illərdə Azərbaycanda dövlət sərhədlərinin mühafizəsi üçün hökumət qərarlarının qəbul edilməsindən söhbət açılır.

**72. Yücəər, N.** Birinci Dünya müharibəsində Osmanlı Ordusunun Azərbaycan və Dağıstan əməliyyatı: Azərbaycan və Dağıstanın öz müstəqilliklərini qazanmaları 1918.- B.: Qafqaz Universiteti, 1999.-196 s.

Kitabda Osmanlı Ordusunun həyata keçirdiyi bu əməliyyat Azərbaycan və Dağıstan xalqlarının müstəqillik əldə etmələrinə səbəb oldu.

## 2000

**73. Azərbaycan Xalq Cümhuriyyətinin** 82- ci ildönümünə həsr olunmuş Respublika elmi konfransının materialları /Red. hey. Mustafazadə T.T.,Qafarov T. B., və b.- B.: Elm, 2000.- 130 s.

Kitabda Azərbaycan Demokratik Respublikasında ordu quruculuğundan, Osmanlı imperatorluğunun Azərbaycana hərbi yardımından, Denikinin ağ ordusunun Şimali Qafqazı işğalı dönəmində Azərbaycan Cümhuriyyəti hökumətinin dağlı xalqlarına qardaşlıq yardımından bəhs olunur.

**74. Azərbaycanda dövlətçilik və** onun rəmzləri /Azərbaycan EA Azərbaycan Tarixi Muzeyi; Tərtibatı və mətnin müəllifi tarix el. dok. Nailə Vəlixanlı.- B., 2000.- 95 (1) s. Azərbaycan və rus dilində.

Kitab beş minillik tarixi əhatə edir, dövlətçiliyin rəmzləri olan sərhədlər, hökmdarlar, dövlət xadimləri, şəhərlər, pul nişanları, rəmzlər haqqında məlumat verilir.

**75. Bayrağımız, gerbimiz, himnimiz** /Tərtib ed. Hikmət Cəmilzadə Xudiyev.- B.: Nağıl evi, 2000.- 19 s.

Kitabçada Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı, 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qəbul etdiyi dövlət rəmzləri haqqında məlumat verilir və Azərbaycanın 2-ci müstəqillik dövründə də həmin atributların müstəqilliyinin simvolu kimi qəbul etdiyi göstərilir.

**76. Qoca, E.** Azərbaycanın təhlükəsizlik və xüsüsi xidmət orqanları (1918-1920) /Red. Fuad İsgəndərov.- B.: "Şuşa", 2000.- 143 (1) s.

**77. Süleymanov, M.** "Azərbaycanda ilk Milli Hərbiyyə Məktəbi (1918)" /Elmi red. tarix el. dok. Tahir Qafarov, tarix elm. nam. Nigar Maksvel.- B.: Hərbi nəşriyyat, 2000.- 175 (1) s.

Kitabda 1918-1920-ci illərdə Azərbaycanda milli kadrların hazırlanmasında xüsusi tarixi yeri olan Milli Hərbiyyə Məktəbinin təşkilindən söhbət açılır.

**78. Süleymanov, M.** Azərbaycanda türk şəhidlikləri /Rəyçi Sənan Həsənov.- B.: Hərbi nəşriyyat, 2000.- 172 s.

Kitab 1918-ci ildə türk hərbi hissələrinin Azərbaycanda keçirdiyi döyüş yoluna, döyüşdə şəhid olmuş əsgər və zabitlərin xidmətlərinə həsr olunmuşdur.

**2001**

**79. Azərbaycan Respublikasının tarixi** günləri və milli bayramları: Metodik vəsait /Tərtib ed. Zamanlı Solmaz.- B., 2001.- 94 s.

Bu metodik vəsaitdə digər milli bayramlarla yanaşı "İsiqlaliyyət Günü" "Azərbaycan Respublikasının Konstitutsiya Günü", milli bayrağımızın tarixindən, atri-

butlarımızdan, milli ordumuzdan, Azərbaycan Demokratik Respublikasının dövlət xadimlərindən məlumat verilir.

**80. Azərbaycan tarixi. Yeddi** cilddə.- (1900-1920-ci illər).- B.: Elm, 2001.- C. V.- 672 s.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəticələnən, milli-azadlıq hərəkatından geniş bəhs edən bu cilddə Cümhuriyyətin müxtəlif sahələrdəki fəaliyyəti və onun süqutuna səbəb olan amillərlə yanaşı, milli dövlət quruculuğunda mühüm tarixi-siyasi əhəmiyyəti şərh edilir.

**81. Əhmədov, T.** Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər) /Red. və ön sözün müəllifi tarix elm. nam. Ataxan Paşayev.- B.: Şirvannəşr, 2001.- 32 s.

Kitab arxiv sənədləri, dövri mətbuat mənbələri əsasında Andranik Ozanyanın simasında erməni şovinistlərinin 1918-1920-ci illərdə Azərbaycan xalqına qarşı soyqırımı siyasətini ifşa edir, erməni xəyanətinin mahiyyətini açır.

**82. Əliyev, İ.** "Azərbaycanda Xalq Cümhuriyyətinin iqtisadi siyasəti" mövzusunun tədrisinə dair metodiki tövsiyə /Elmi rəhb. prof. H.F.Cəfərov; Azərbaycan Respublikası Təhsil Problelmləri İnstitutu; Azərbaycan İqtisad Universiteti.- B., 2001.- 24 s.

Müəllif bu mövzunun tədrisində Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın sosial-iqtisadi vəziyyətini, hökumətin aqrar və sənaye sahəsində siyasətinin öyrənilməsini tövsiyə edir.

**83. Əliyev, M.** Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı /Elmi red. tarix elm. nam. H.N.Həsənov, T.R.Cəfiyev.- B.: Adiloğu, 2001.- 316 s.

Müəllif Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması prosesinə toxunmuş, (XIX- əsrin əvvələrindən başlayaraq XX əsrin 60-80-cı illərinə qədər) rusların

müstəmləkə siyasətini İran, Türkiyə və Avropa tarixçilərinin əsərlərinə əsaslanaraq tənqid etmişdir.

**84. 1918-1920-ci illərdə** azərbaycanlıların soyqırımı: Sənədlər və materiallar /Tərt. ed. və çapa hazır. Vaqif Şirinoğlu; Azərbaycan MEA Beynəlxalq Münasibətlər İnstitutu.- B.: Qartal, 2001.- 175 s. Azərbaycan və rus dillində.

